

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

"Dağıdılmış sərvətlər, məhv edilmiş kitabxanalar" adlı buklet Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»nın Tədbirlər Planının 2.2.17. bəndinin icrası məqsədi ilə hazırlanmışdır.

TƏRTİBÇİ:
Samir Abbasov

ELMİ MƏSLƏHƏTÇİLƏR:
Lətifə Məmmədova
Əli Eyvazov
Mayıl Əhmədov
Aybəniz Əliyeva-Kəngərli

REDAKTORLAR:
Yeganə Qarayeva
Xuraman İsmayılova

*Nəşrdə Ermənistan silahlı birləşmələri tərəfindən 1988-ci ildən başlayaraq Azərbaycana qarşı aparılan işğalçı müharibə nəticəsində zəbt olunmuş Azərbaycan torpaqlarında dağıdılmış və talan edilmiş kitabxanalar haqqında qısa məlumat verilir.*
*Respublikanın işğal olunmuş rayonlarının ərazisi və əhalisinin sayına dair statistik məlumatlar tərtib edilərkən Azərbaycan Milli Ensiklopediyasından (2007) istifadə edilmişdir.*

Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Bir milyon azərbaycanlı öz doğma torpaqlarından qaçqın-köçkün düşmüşdür... Biz ümid edirik ki, danışıqlar prosesi müsbət nəticə verəcək. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və işğaldan əziyyət çəkən soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar.

-567-
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
*Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda çıxışından*

## ÖN SÖZ

Dünyanın görkəmli alimlərinin təbii muzey adlandırdığı Azərbaycanın ən unikal guşəsi Qarabağdır. Qarabağın tarixi kökləri çox qədimlərə gedib çıxır. Elmi dəlil və əsaslarla deyə bilərik ki, ilk insan məskənlərindən biri də Qarabağdır. Azıx mağarasında 350-400 min il əvvəl yaşamış insan çənəsinin bir hissəsi tapılmışdır.

Dünya mədəniyyətinə çox nadir incilər bəxş etmiş Qarabağ Azərbaycan mədəniyyətinin, musiqisinin beşiyidir.

Əfsuslar olsun ki, 1988-ci ildən Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində ərazimizin 20 %-i ilə bərabər qiymətli mədəni sərvətlərimizi də itirdik. Qədim Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisində, işğal altında olan Qarabağda maddi-mədəniyyət nümunələrimiz məhv edilmişdir. Təkcə Şuşa şəhərindəki 199 memarlıq abidəsindən çoxu, o cümlədən Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Saatlı məscidi, böyük Azərbaycan şairi M.P.Vaqifin məqbərəsi, XVIII-XIX əsrlərə aid yaşayış evləri və s. abidələr dağıdılmışdır.

Tunc dövrünə aid Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin ən xarakterik arealı olan Xocalı şəhərində ermənilər Rus ordusunun 366-cı alayı ilə birgə misli görünməmiş vəhşiliklər törətmişlər. Bir gecənin içərisində şəhər yerlə-yeksan edilərək xəritədən silinmişdir.

Yaxın və Orta Şərqin ən qədim insan məskənlərindən olan Azıx və Tağlar mağaraları, Aquen məbədi, Gəncəsar monastırı, Qaraköpək, Üzərliktəpə və s. abidələr hərbi məqsədlər üçün istifadə edilir. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazisində 547 memarlıq abidəsi, o cümlədən 5 dünya, 393 ölkə və 149 yerli əhəmiyyətli memarlıq abidəsi, 205 arxeoloji abidə, 927 kitabxana, 808 klub müəssisəsi, 85 musiqi məktəbi, 12 monument, 22 muzey, 4 rəsm qalereyası, 10 mədəniyyət və istirahət parkı, 4 dövlət teatrı,

2 konsert müəssisəsi dağıdılmış, yandırıımış və qarət edilmişdir. Dünya əhəmiyyətli Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi, nadir eksponatlara malik Şuşa şəhəri, Qarabağın tarixi muzeyi, dünyada ikinci olan Ağdam çörək muzeyi, Zəngilandakı daş heykəllər muzeyi erməni vəhşiləri tərəfindən yerlə-yeksan edilmişdir.

Erməni təcavüzkarları tərəfindən işğal edilmiş ərazilərdəki muzeylərdən ümumdünya əhəmiyyətinə malik 40 minə yaxın nadir muzey əşyaları, Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli eksponatlar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları, dekorativ-tətbiqi sənət nümunələri, əlyazmalar, arxiv sənədləri, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları və digər qiymətli materiallar qarət edilmişdir.

Mənəvi zərərin həcmini mövcud olan heç bir ölçü meyarı ilə təyin etmək mümkün deyil.

BMT-nin 822 (30 aprel 1993-cü il), 853 (29 iyul 1993-cü il), 874 (14 oktyabr 1993-cü il), 884 (11 noyabr 1993-cü il) nömrəli qətnamələrində və Avropa Şurasının 1416 saylı Bəyannaməsində Azərbaycanın Şuşa şəhəri də daxil olmaqla 20 % ərazisinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, separatçı qüvvələrin hələ də bu regionu nəzarət altında saxladığı faktı təsdiq olunsa da heç bir nəticə verməyib. Ermənistan beynəlxalq qanunları kobudcasına pozaraq Azərbaycan abidələrini dağıdır, torpaqlarını, meşələrini yandırır.

Hər bir xalqın mədəni irsi təkcə o xalqa deyil, bəşəriyyətə məxsusdur və deməli, erməni siyasəti bəşəri dəyərlərə düşməndir. Oxuculara təqdim olunan bu kitabçada erməni vandalizminin iç üzü bir daha açılır. Bu kitabçada təkcə bəşər övladının mənəvi xəzinəsini əks etdirən kitabxanalara dəyən zərər əks olunur.

Bu bir həqiqətdir ki, dağıdılmış kəndləri, şəhərləri bərpa etmək, yenidən tikmək, maddi ziyanı ödəmək olar, amma itirilmiş mədəniyyəti, yaralanmış mənəviyyatı qaytarmaq, sağaltmaq qeyri-mümkündür. Haqq səsimizi dünyaya car çəkərək milli-mənəvi dəyərlərimizə sahib çıxmalıyıq.

Tərtib etdiyimiz kitabça bu yolda atılan addımlardan biridir və daha uğurlu addımlar atmaq üçün hər kəs bacarığını əsirgəməməlidir.



# ŞUŞA RAYONU

## Rayonun ərazisi 29,0 km$^2$

## Əhalisinin sayı 26.700 min nəfər (01.01.2006)

İşğaldan əvvəl Şuşa rayonunda 248 tarix və mədəniyyət abidələri, 5 muzey, rəsm qalereyası, 32 kitabxana mövcud olmuşdur.

Şuşa şəhərində ilk qiraətxana dövrünün görkəmli şairi Mir Möhsün Nəvvabın təşəbbüsü ilə açılmışdır. O, Şuşada ilk təhsil ocağının qiraətxana-kitabxananın açılmasının təşəbbüskarı olmuşdur.

Mir Möhsün Nəvvab bir çox ölkələrdə çap olunan qəzet və jurnalları Şuşaya gətirmiş və kütləvi olaraq oxucuların istifadəsinə təqdim etmişdir.



Şuşa rayonunda fəaliyyət göstərən bir Mərkəzi kitabxana və 31 kitabxananın birləşdirilməsi nəticəsində 1977-ci ildə Şuşa rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) təşkil edilmişdir. Rayon MKS-nin tərkibində 32 kitabxana binası mövcud olmuşdur. 1991-ci ilin məlumatına görə rayon MKS-də işçilərin sayı 103 nəfər, kitabxana fondunun ümumi həcmi 200 min nüsxə, oxucularının ümumi sayı 10 min nəfər təşkil etmişdir. Şuşa rayon MKS-i respublika əhəmiyyətli "Xarı Bülbül" musiqi festivalının keçirilməsində daim fəal iştirak etmişdir. 1992-ci il 8 may tarixində Şuşa rayonu erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş, rayon ərazisində etnik təmizləmə əməliyyatı aparılmışdır.

İşğal nəticəsində rayon ərazisindəki 32 kitabxana və bu kitabxanalarda saxlanılan qədim və unikal kitablar yandırılmış və məhv edilmşdir. Kitabxanaların dağıdılması nəticəsində dövlətə 1 milyon 106 min manat həcmində ziyan dəymişdir.









# LAÇIN RAYONU

## Rayonun ərazisi – 1835 km²

## Əhalisi: 68,9 min nəfər (01.01.2006)

Rayon 18 may 1992-ci ildə erməni silahlı birləşmələri tərəfindən işğal olunmuşdur.

İşğal nəticəsində Laçın rayonunda 119 kitabxana, Tarix-Diyarşünaslıq Muzeyi, 85 klub, 5 musiqi məktəbi dağıdılmış və talan edilmişdir.

İşğaldan əvvəl rayon ərazisində mağara məbəd (V əsr), türbələr (XIV, XIX əsrlər), qala (XVII əsr), məscid (1718-ci il), saray (1716-cı il), körpü (XVIII əsr) və s. qeydə alınmışdır.


Laçın rayon Mərkəzi Kitabxanasının əməkdaşları iş zamanı (Laçın rayonu, 1991)


İşğal olunmuş ərazilərdə kitabxanalar dağıdılmış və talan edilmişdir.


Laçın rayon Mərkəzi kitabxanasında oxuculara xidmət zamanı (Laçın rayonu, 1991)

Laçın rayonunda fəaliyyət göstərən 119 kitabxana əsasında 1976-cı ildə Laçın rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) yaradılmışdır. 1991-ci ilin məlumatına əsasən Laçın rayon MKS-nin kitab fondu 843 min nüsxə, oxucularının sayı 20 min nəfər, işçilərin sayı 199 nəfər olmuşdur. Rayon MKS-nin 115 kənd kitabxana filialı müasir binalarla təmin olunmuşdu.

Laçın rayon Mərkəzi Kitabxanasının fondunda qədim, unikal və nadir kitablar saxlanılırdı. Kitabxanada 14 otaq, 2 oxu zalı oxucuların istifadəsinə verilmişdi. Rayon MKS-i rayon və respublika əhəmiyyətli tədbirlərin keçirilməsində yaxından iştirak etmişdir.

18 may 1992-ci ildə Laçın erməni silahlı birləşmələri tərəfindən işğal olunduqdan sonra rayon ərazisindəki bütün kitabxanalar dağıdılmış, onların kitab fondu və kitabxanalara məxsus 123 bina məhv edilmişdir.

Azərbaycan Respublikasına 2 milyon 580 min manat həcmində maddi ziyan dəymişdir.

Hal-hazırda Laçın rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi Azərbaycan Respublikasının Ağcabədi rayonunun Taxtakörpü adlanan ərazisində müvəqqəti fəaliyyət göstərir.

Laçın rayonu Dağlıq Qarabağ ətrafında yerləşdiyi və bu regiona heç bir aidiyyatı olmadığı halda Ermənistan Respublikası bütün beynəlxalq konvensiyaları pozaraq rayonu işğal altında saxlamaqda davam edir.





# KƏLBƏCƏR RAYONU

Rayonun ərazisi: 3054 km²

Əhalisi: 73,6 min nəfər (01.01.2006)

1993-cü ilin aprel ayının 2-də Kəlbəcər rayonu erməni silahlı birləşmələri tərəfindən işğal edilmişdir.

İşğal nəticəsində 119 kitabxana, 17 klub, incəsənət məktəbi, rayon tarix-diyarşünaslıq muzeyi dağıdılmış və talan edilmişdir.

İşğaldan əvvəl Kəlbəcər rayonunda XIII-XVIII əsrə aid alban məbədləri qeydə alınmışdır.



Kəlbəcər rayonunda oxuculara xidmət edən 119 kitabxana əsasında 1976-cı ildə Kəlbəcər rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) yaradılmışdır. 1992-ci ilin məlumatına əsasən Kəlbəcər rayon MKS-nin kitab fondu 600 min nüsxə, oxucularının sayı 35 min nəfər, işçilərin sayı 175 nəfər olmuşdur. Kəlbəcər rayon Mərkəzi Kitabxanası 1992-ci ildə "Yeni şəhər" adlanan ərazidə ikimərtəbəli xüsusi kitabxana tipli binada yerləşdirilmişdir. Eyni zamanda şəhər kitabxana filialları da yeni binalarla, habelə inventar və avadanlıqlarla təmin edilmişdir.

1993-cü ilin aprel ayının 2-də Kəlbəcər rayonunun erməni silahlı birləşmələri tərəfindən işğalı nəticəsində rayonun 119 kitabxana binası, habelə onlara məxsus kitab fondları dağıdılmış və talan edilmişdir.

Hazırda Kəlbəcər rayon Mərkəzi Kitabxanası və onun kitabxana filialları Azərbaycan Respublikasının Gəncə şəhərində kəlbəcərlilərin sıx məskunlaşdığı Gülüstan qəsəbəsində müvəqqəti fəaliyyət göstərir.

İşğal nəticəsində rayonda bütün infrastruktur, mədəniyyət abidələri, o cümlədən kitabxana binaları tamamilə məhv edilmiş, kitabxanalara təqribi hesablamalara görə 2 milyon 470 min manat həcmində maddi ziyan dəymişdir. 1993-cü il aprel ayının 6-da BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı birləşmələrinin Dağlıq Qarabağ ətrafında yerləşən Kəlbəcər rayonunun və Azərbaycanın digər ərazilərinin işğalını pisləyən qətnamə qəbul etdi.

Lakin erməni qoşunları artıq 17 ildən artıqdır ki, işğalı davam etdirir.





KƏLBƏCƏR RAYON MƏRKƏZLƏŞDİRİLMİŞ KİTABXANA SİSTEMİ



# AĞDAM RAYONU

**Rayonun ərazisi 1150 km²**

**Əhalisinin sayı 167,3 min nəfər (01.01.2006)**

Ağdam rayonu 1993-cü il 23 iyul tarixində erməni silahlı birləşmələri tərəfindən işğal olunmuşdur. İşğal nəticəsində Ağdam rayonunda 107 kitabxana, Tarix-Diyarşünaslıq Muzeyi, Çörək Muzeyi, tanınmış xanəndə Qurban Pirimovun Ev Muzeyi, 24 klub, Dram Teatrı, Şəkil Qalereyası dağıdılmış və məhv edilmişdir.

İşğaldan əvvəl Ağdam rayonunda Qutlu Musa oğlu türbəsi (1314) Kəngərli kəndindəki türbə (XIV əsr), Papravənd kəndində 2 türbə (XVIII əsr) qeydə alınmışdır.



Erməni işğalı altında olan Ağdam rayonunun Mədəniyyət evi

Dağlıq Qarabağın ətrafında yerləşən Ağdam iqtisadi cəhətdən inkişaf etmiş bir rayon idi. Rayonda çoxlu sayda mədəniyyət obyektləri inşa edilmişdi. Ağdam rayonunda 107 kitabxananın əsasında 1979-cu ildə Ağdam rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) yaradılmışdır.

1992-ci ilin məlumatına əsasən Ağdam rayon MKS-nin kitab fondu 970 min 996 nüsxə, oxucularının sayı 72 min 130 nəfər, işçilərin sayı 170 nəfər olmuşdur.

Ağdam rayon Mərkəzi Kitabxanası respublika əhəmiyyətli "Xarı Bülbül" festivalının keçirilməsində yaxından iştirak etmişdir.

İşğaldan əvvəl rayonun 106 kənd kitabxana filialında 676 min nüsxə kitab, jurnal və qəzet saxlanılmışdır.

Ağdam rayon Mərkəzi Kitabxanası 1992-ci ildə inşa edilmiş yeni binaya köçürülmüş, kitabxana inventar, avadanlıqla təmin edilmişdir.

Ağdam rayonunun 1993-cü il 23 iyul tarixində erməni silahlı birləşmələri tərəfindən işğal olunması nəticəsində rayon ərazisindəki 107 kitabxana tamamilə dağıdılmış və rayon kitabxanalarına təqribi hesablamalara görə 2 milyon 850 min manat məbləğində maddi ziyan dəymişdir.

Hazırda Ağdam rayon Mərkəzi Kitabxanası rayonun Quzanlı qəsəbəsində müvəqqəti fəaliyyət göstərir.

Ağdam rayonunun erməni işğalı altında olmayan 10 kəndində (rayonun 20 faizi) 60 min sakin məskunlaşmışdır.



Erməni işğalçıları tərəfindən dağıdılmış Ağdam rayon Uşaq Kitabxnası



Erməni işğalı altında olan Ağdam rayonu tamamilə dağıdılmış və talan edilmişdir.



# CƏBRAYIL RAYONU

## Rayonun ərazisi 1049,8 km$^2$

## Əhalisi 66,4 min nəfər (01.01.2006)

Cəbrayıl rayonu 1993-cü il 23 avqust tarixində erməni silahlı birləşmələri tərəfindən işğal olunmuşdur. İşğal nəticəsində 31 kitabxana, 3 musiqi məktəbi, 19 klub müəssisəsi dağıdılmış və talan edilmişdir.

İşğaldan əvvəl rayonda çoxsaylı tarixi-arxeoloji və memarlıq abidələri, qədim yaşayış məskənləri, kurqanlar, məscid, hamam, türbələr, tarixi Xudafərin körpüsü mövcud olmuşdur.



Cəbrayıl rayonunda Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) 1983-ci ildə təşkil edilmişdir. 78 kütləvi kitabxana əsasında rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi yaradılmışdır. 1992-ci ilin məlumatına görə rayon MKS-nin 105 nəfər əməkdaşı olmuşdur. Cəbrayıl rayon MKS-nin kitab fondu 552 min 400 nüsxə, oxucuların sayı 27 min 800 nəfər təşkil etmişdir. Cəbrayıl rayon MKS-i hər il rayonda keçirilən "Qurbani saz bayramı" və ənənəvi "Novruz bayramı"nın keçirilməsində yaxından iştirak etmişdir. Cəbrayıl rayonu 1993-cü il 23 avqust tarixində erməni silahlı birləşmələri tərəfindən işğal edildikdən sonra rayon ərazisindəki 78 kitabxana binası dağıdılmış və orada saxlanılan nadir və unikal nəşrlər məhv edilmişdir. İşğal nəticəsində rayon kitabxanalarına indiki qiymətlə təqribən 1 milyon 700 min manat həcmində maddi ziyan dəymişdir. Hal-hazırda Cəbrayıl rayon Mərkəzi Kitabxanası Biləsuvar rayonunda inşa edilmiş qəsəbədə cəbrayıllıların kompakt yaşadığı ərazidə müvəqqəti fəaliyyət göstərir.





# CƏBRAYIL RAYONU

CƏBRAYIL RAYON MƏRKƏZLƏŞDİRİLMİŞ KİTABXANA SİSTEMİ



# FÜZULİ RAYONU

## Rayonun ərazisi 1390 km$^2$

## Əhalisi 147,1 min nəfər (01.01.2006)

Füzuli rayonu 1993-cü il 23 avqust tarixində erməni silahlı birləşmələri tərəfindən işğal olunmuşdur.
İşğal nəticəsində 15 tarixi abidə, 90 kitabxana, 20 mədəniyyət evi, 45 klub, dövlət dram teatrı, 2 muzey və s. obyektlər dağıdılmış və talan edilmişdir.
İşğaldan əvvəl rayonda qədim yaşayış məskənləri, kurqanlar, türbələr (XIII-XVIII əsrlər), məscidlər (XVII-XIX əsrlər), Karvansara (1684-cü il) qeydə alınmışdır.



Füzuli rayonunda Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) 1978-ci ildə təşkil edilmişdir. 1 rayon Mərkəzi və 89 kütləvi kitabxana birləşdirilərək Füzuli rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi yaradılmışdır. 1992-ci ilin məlumatına görə rayon MKS-nin 171 nəfər əməkdaşı olmuşdur. Füzuli rayon MKS-nin kitab fondu 659 min nüsxə, oxucuların sayı 45 min 620 nəfər təşkil etmişdir. 1993-cü il 23 avqust tarixində Füzuli rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması nəticəsində rayon ərazisindəki bütün kitabxanalar dağıdılmış və talan edilmişdir. Müharibə nəticəsində rayon kitabxanalarına təqribi hesablamalara görə 1 milyon 889 min manat həcmində maddi ziyan dəymişdir. Hazırda Füzuli rayon Mərkəzi Kitabxanası Füzuli rayonunun Azərbaycan Silahlı qüvvələrinin nəzarətində olan I Zobucuq kəndində fəaliyyət göstərir. Füzuli rayon MKS-i 2009-cu ildə kitabxananın yeni veb-saytını oxucuların istifadəsinə təqdim etmişdir.



Erməni işğalçıları tərəfindən dağıdılmış Böyük Bəhmənli kənd kitabxana filialı



Erməni işğalçıları tərəfindən dağıdılmış Əhmədbəyli kənd kitabxana filialı



Erməni işğalı altında olan Füzuli rayon Qarabağ kənd kitabxana filialı

FÜZULİ RAYON MƏRKƏZLƏŞDİRİLMİŞ KİTABXANA SİSTEMİ



# QUBADLI RAYONU

**Rayonun ərazisi 800 km²**

**Əhalisi 35,7 min nəfər** (01.01.2006)

Qubadlı rayonu 31 avqust 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur.

İşğal nəticəsində Qubadlıda 85 kitabxana, 10 mədəniyyət evi və 28 klub, 6 avtoklub, 23 kino qurğusu dağıdılmış və talan edilmişdir.

İşğaldan əvvəl rayon ərazisində memarlıq abidələri, mağara-ibadətgah (IV əsr), qalalar (V əsr), türbələr (XIV-XVII əsrlər), məscid (XIX əsr), körpü (1867-ci il) və s. qeydə alınmışdır.



Qubadlı rayonunda Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) 1977-ci ildə təşkil edilmişdir. 1 rayon Mərkəzi və 84 kütləvi kitabxana filialı birləşdirilərək Qubadlı rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi yaradılmışdır. 1992-ci ilin məlumatına görə rayon MKS-də 132 nəfər əməkdaş çalışmışdır. Kitabxana fondlarının ümumi həcmi 600 min nüsxə, oxucuların sayı 21 min nəfər təşkil etmişdir. Qubadlı rayon MKS-i hər il respublika və rayon əhəmiyyətli "Məhsul bayramı"nın keçirilməsində iştirak etmişdir. Qubadlı rayonunda kitabxana və kitabxana filialları xüsusi binalarla təmin olunmuşdur.

31 avqust 1993-cü ildə Qubadlının Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması nəticəsində rayonun 85 kitabxana və kitabxana filialı dağıdılmış və talan edilmişdir. İşğal nəticəsində rayon kitabxanalarına indiki qiymətlərlə 1 milyon 880 min manat həcmində maddi ziyan dəymişdir. Hal-hazırda Qubadlı rayon Mərkəzi Kitabxanası Sumqayıt şəhəri, 41-ci məhəllə, 28 may adına Mədəniyyət evində fəaliyyət göstərir.

Qubadlı rayon MKS-i 2009-cu ildə kitabxananın yeni veb-saytını oxucuların istifadəsinə təqdim etmişdir.



QUBADLI RAYON MƏRKƏZİ KİTABXANASI (işğaldan əvvəl)

QUBADLI RAYON MƏRKƏZLƏŞDİRİLMİŞ KİTABXANA SİSTEMİ



# ZƏNGİLAN RAYONU

**Rayonun ərazisi - 707 km$^2$**

**Əhalisi 40 min 500 nəfər** (01.01.2011)

Zəngilan rayonu 29 oktyabr 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal olunmuşdur.

İşğaldan əvvəl Zəngilan rayonunda tarix memarlıq abidələri, türbə (1304-1305-ci illər), sərdabələr (XII-XIV əsrlər), dairəvi bürc (XIV əsr) qeydə alınmışdır.

Rayonda Tarix-Diyarşünaslıq Muzeyi, Xalqlar Dostluğu Muzeyi, 3 yeddiillik musiqi məktəbi, 70 kitabxana dağıdılmış və talan edilmişdir.

Zəngilan rayonunda Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) 1976-cı ildə təşkil edilmişdir. 1 rayon Mərkəzi, 3 şəhər, 1 qəsəbə, 65 kənd kütləvi kitabxanası birləşdirilərək Zəngilan rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi yaradılmışdır. 1991-ci ilin məlumatına görə rayon MKS-də 158 nəfər əməkdaş çalışmışdır.



Zəngilan rayon Mərkəzi Kitabxanası.
İşğaldan əvvəl (1992-ci il)

Kitabxana fondlarının ümumi həcmi 490 min nüsxə, oxucuların sayı 20 min nəfər təşkil etmişdir. Zəngilan rayon MKS-i hər il respublika və rayon əhəmiyyətli “Məhsul bayramı” və “Novruz bayramı” tədbirlərinin təşkilatçısı olmuşdur.

29 oktyabr 1993-cü ildə Zəngilan rayonunun erməni işğalçıları tərəfindən işğalı nəticəsində rayonun mərkəzindəki 1 mərkəzi, 1 uşaq, 1 gənclər, 1 şəhər, 1 qəsəbə habelə rayonun kəndlərində fəaliyyət göstərən 70 kitabxana filialı dağıdılmış, məhv edilmiş və burada saxlanılan nadir, qiymətli kitablar talan edilmişdir. İşğal nəticəsində rayon kitabxanalarına indiki qiymətlərlə 1 milyon 660 min manat həcmində maddi ziyan dəymişdir. Hazırda Zəngilan rayon Mərkəzi Kitabxanası Bakı şəhərində Nərimanov rayonu H.Məmmədov küçəsi 11 ünvanında fəaliyyət göstərir.



ZƏNGİLAN RAYON MƏRKƏZLƏŞDİRİLMİŞ KİTABXANA SİSTEMİ



# AĞDƏRƏ RAYONU

Rayonun ərazisi 1705 kv.km

Əhalisi 44.4 min nəfər (01.01.1990)

1930-cu ildə yaradılan Ağdərə rayonund 1 şəhər tipli qəsəbə və 57 kənd mövcud olmuşdur.

Qeyd : 1991-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edildikdən sonra 1992-ci ildə Ağdərə rayonu üç qonşu rayon Kəlbəcər, Tərtər və Ağdam arasında bölüşdürülmüşdür.

400 minə yaxın fonda malik olan Ağdərə rayon MKS-i 1978-ci ildə 61 kənd 4 rayon kütləvi kitabxanası əsasında təşkil olunmuşdur. Ağdərə rayonunun ərazisi 7 iyul 1993-cü il tarixində erməni separatçıları tərəfindən işğal olunması nəticəsində rayonun 65 kitabxana binası dağıdılmış və talan edilmişdir. İşğal nəticəsində rayon kitabxanalarına indiki qiymətlə təqribən 1 milyon 300 min manat həcmində maddi ziyan dəymişdir.



Erməni işğalçıları tərəfindən dağıdılmış Umudlu kənd kitabxana filialı



Ermənilərin Qarabağa köçürülməsinin 150 illiyi münasibəti ilə ucaltdıqları abidə kompleksi



# XOCALI RAYONU

**Rayonun ərazisi 936 km²**

**Əhalisi 25 min nəfər** (01.01.2011)

Xocalı rayonunun ərazisi 1991-1992-ci illərdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Rayonda 1 şəhər, 2 qəsəbə, 46 kənd olmuşdur. Mərkəzi Xocalı şəhəridir.

İşğaldan əvvəl Xocalı rayonu ərazisində XXVIII əsrə aid Əsgəran qalası, qədim memarlıq abidələri, bizim eranın XIII-XIV əsrə aid edilən səkkiz guşəli günbəz, türbələr və əsasən son tunc və erkən dəmir dövrünə (b.e. əvvəl XIV-XIII əsrdən VII-VI əsrə) aid edilən Xocalı abidələr kompleksi 5 adda 11 nəhəng torpaq kurqan, daş kurqanlar, torpaq-daş kurqanlar, siklop tikililər (Qalaçalar), nekropollar, menhirlər (5-10 ton ağırlığında nəhəng sivri daşlar), daş sənduqə qəbirlər, daş kitabələr, daş qutular və Alban kilsələri qeydə alınmışdır.

İşğaldan əvvəl rayon ərazisində 69 kitabxana, 8 mədəniyyət evi, 60 klub, 3 musiqi məktəbi, tarix-diyarşünaslıq muzeyi fəaliyyət göstərmişdir.

Ötən əsrin 70-ci illərində respublikada kitabxanaların vahid bir mərkəzdən idarə olunması məqsədi ilə Əsgəran rayonunda 400 mindən çox kitab fonduna malik olan 69 kütləvi kitabxana əsasında Mərkəzləşdirilmiş Kitabxana Sistemi yaradılmışdır. İşğala qədər Xocalı şəhərində 9 kütləvi kitabxana fəaliyyət göstərmişdir.

İşğal nəticəsində rayon ərazisində etnik təmizləmə əməliyyatı aparılmış, azərbaycanlılara məxsus maddi-mədəniyyət abidələri, o cümlədən kitabxanaların fondları məhv edilmişdir.

Rayon ərazisində 69 kitabxana binasının dağıdılması və orada saxlanılan nadir və unikal nəşrlərlərin məhv edilməsi nəticəsində Azərbaycan Respublikasına təqribən 1 milyon 500 min manat həcmində maddi ziyan dəymişdir.



# XOCAVƏND RAYONU

**Rayonun ərazisi 1458 km²**

**Əhalisi 40,8 min nəfər** (01.01.2011)

Xocavənd rayonu 1991-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edildikdən sonra Martuni (indiki Xocavənd) və Hadrut rayonlarının bazasında yaradılmışdır.

Xocavənd rayonu 2 oktyabr 1992-ci il tarixində erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. İşğaldan əvvəl rayon ərazisində 72 mədəniyyət abidəsi, dünya əhəmiyyətli Azıx mağarası, qalalar (I-XVIII əsrlər), Alban məbədi (X əsr), türbə (XIII əsr) və s. qeydiyyata alınmışdır.



Xocavənd rayonunda 1 rayon Mərkəzi və 81 kitabxana filialı fəaliyyət göstərmişdir. 1992-ci ilin məlumatına görə rayon MKS-də 81 nəfər əməkdaş çalışmışdır. Kitabxana fondlarının ümumi həcmi 463 min nüsxə, oxucuların sayı 17 min nəfər təşkil etmişdir. Xocavənd rayonunda kitabxana və kitabxana filialları xüsusi binarla təmin olunmuşdur. Xocavənd rayonunun 2 oktyabr 1992-ci il tarixində erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində rayon kitabxanalarına indiki qiymətlərlə təqribi hesablamalara görə 1 milyon 700 min manat həcmində maddi ziyan dəymişdir. Hal-hazırda Xocavənd rayon Mərkəzi Kitabxanası Beyləqan rayonunda fəaliyyət göstərir.



## Qazax rayonunun 7 kəndi

Qazax rayonunun 7 kəndi Bağanis Ayrım, Yuxarı Əskipara, Aşağı Əskipara, Barxudarlı, Qızılhacılı, Xeyrimli, Sofulu erməniişğalı altındadır. Rayonun Bağanıs Ayrım kəndi 1990-cı ilin martın 23-də ermənilər tərəfindən işğal olunub. İşğal zamanı Bağanıs Ayrım kəndinin əli silahsız, günahsız əhalisinə qarşı tarixdə görünməmiş divan tutulmuş, bir neçə ailə xüsusi amansızlıqla qətlə yetirilmiş və yandırılmışdır.

Bu Azərbaycan tarixinə Bağanis Ayrım faciəsi kimi qara hərflərlə yazılmışdır. Qazax rayonunun digər Yuxarı Əskipara,Aşağı Əskipara, Barxudarlı, Qızılhacılı, Xeyrimli, Sofulu kəndləri 1992-ci il aprel ayında erməni işğalçıları tərəfindən zəbt olunmuşdur. İşğal nəticəsində 8 kitabxana filialı və onlara məxsus 178 min 285 min nüsxə kitab yandırılmış və məhv edilmişdir.

Qazax rayonunun kitabxana-informasiya şəbəkəsinə təqribi hesablamalara görə 180 min manat məbləğində maddi ziyan dəymişdir.



Əskipara kənd kitabxana filialı
İşğal nəticəsində dağıdılmışdır.

Qazax rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi

## ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ NƏTİCƏSİNDƏ AZƏRBAYCAN KİTABXANALARINA DƏYMİŞ MADDİ VƏ MƏNƏVİ ZİYAN HAQQINDA

Ötən əsrin 90-ci illərində Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddiaları irəli sürüb, beynəlxalq hüquq normalarını kobudcasına pozaraq Birləşmiş Millətlər Təşkilatına üzv olan bütün dövlətlər tərəfindən ölkəmizin rəsmən tanınmış ərazisinin 20 faizini hərbi təcavüz yolu ilə işğal etmiş Ermənistan hərbi birləşmələri milli mədəniyyət abidələrimizi, kitabxanaları qəddarcasına uçurub dağıtmışlar. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il konvensiyasına ziddir. Hərbi təcavüz nəticəsində işğal olunmuş ərazilərdə Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kitabxanalar və orada saxlanılan unikal və nadir kitab kolleksiyaları talan edilmiş və yandırılmışdır. Qarabağın mədəniyyət və təhsil mərkəzi Şuşa tarixi memarlıq qoruğunun ərazisində yerləşən Pənah xanın tarixi kitabxanası, rəssam, görkəmli alim Mir Mövsüm Nəvvabın şəxsi kitabxanası, Aşağı və Yuxarı Gövhərağa, Köçərli, Mərdinli, cümə məscidlərini, dahi bəstəkar Üzeyir Hacıbəyovun, professional vokal sənətinin banisi Bülbülün ev muzeylərində saxlanılan dəyərli kitablar erməni vandalları tərəfindən məhv edilmişdir. Onların çoxu Ermənistana aparılmışdır. İşğal zonalarında maddi mədəniyyət yadigarlarımızın dağıdılması prosesi indi də davam edir.

ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ NƏTİCƏSİNDƏ AZƏRBAYCAN KİTABXANALARINA DƏYMİŞ MADDİ VƏ MƏNƏVİ ZİYAN HAQQINDA

Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 9 Mərkəzləşdirilmiş Kitabxana Sistemi, 927 kitabxana və orada saxlanılan 4,6 milyon nüsxə kitab talan və məhv edilmişdir.

Bundan başqa, 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri işğal zonasında qalmışdır.

Bunlarla yanaşı işğal olunmuş ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, 808 klub, 4 teatr və 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi işğal zonasında qalmışdır.

Təqribi hesablamalara görə Azərbaycanın kitabxana-informasiya sahəsinə 20 milyon 815 min ABŞ dolları həcmində maddi ziyan dəymişdir.

Keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək muzeyi şəhərin bombardmanı zamanı yerlə yeksan edilmiş, dünya şöhrətli Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin 13 minədək, Laçın tarix-diyarşünaslıq muzeyinin 5 mindən çox qiymətli və nadir əşyası Ermənistana daşınmışdır.

Şuşanın zəbt edilməsi nəticəsində mənəviyyatımıza olduqca ağır zərbə endirilmişdir. Təkcə Şuşa şəhərində 32 kitabxana, 5 muzey, 17 klub, 8 mədəniyyət evi dağıdılmış, viran edilmişdir.

Azərbaycan xalqının mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olduğundan Azərbaycan Respublikasının ərazisində xalqımızın çoxəsrlik tarixi keçmişindən yadigar qalmış tarix və mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyət kəsb edən bir problemdir.